Yanvarın 30-da STEAM İnnovasiya Mərkəzində dərslik ekspertləri ilə görüş keçirilib. Görüşdə ümumi təhsil pilləsi üzrə 2023–2024-cü tədris ili üçün hazırlanmış dərsliklərin qiymətləndirmə nəticələri, tədris ilinin birinci yarısı ərzində müəllimlərdən daxil olmuş əks-əlaqə və nailiyyətlər müzakirə edilib.

Növbəti tədris ilinə təkmilləşdirilməli və yeni hazırlanmalı dərsliklərin ekspertizasının gedişatı təhlil edilib, həmçinin təkliflər dinlənilib.

Sonra ekspertlər STEAM İnnovasiya Mərkəzinə baxış keçirib, eksponat və simulyatorların tədrisdə istifadə imkanlarını müzakirə ediblər.